**“Xidməti və mülki silah haqqında”**
**Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə**

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Xidməti və mülki silah haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti bir ay müddətində:

qüvvədə olan normativ-hüquqi aktların “Xidməti və mülki silah haqqında” Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

“Xidməti və mülki silah haqqında” Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş Kadastrın aparılması qaydasını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

“Xidməti və mülki silah haqqında” Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinin altıncı hissəsində nəzərdə tutulmuş xarici dövlətlərin hüquqi şəxslərinin, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində müvafiq olaraq xidməti və ya mülki silahın əldə etməsi, saxlanması və təyinatı üzrə istifadə etmə qaydalarını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

“Xidməti və mülki silah haqqında” Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin 7-ci hissəsində nəzərdə tutulmuş xidməti silahın saxlanması, gəzdirilməsi və ondan təyinatı üzrə istifadə qaydaları üzrə hazırlıq proqramını, odlu silahın istifadəçisinin həmin silahın tətbiqi şəraitdə yararlığı baxımından dövrü olaraq yoxlamadan keçirilməsi qaydalarını, habelə xidməti silahın əldə edilməsi və onun fiziki şəxslərə verilməsi qaydasını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

“Xidməti və mülki silah haqqında” Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş xidməti və mülki silahın Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından aparılması qaydalarını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

“Xidməti və mülki silah haqqında” Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinin birinci hissəsində nəzərdə tutulmuş Azərbaycan Respublikasının ərazisində xidməti və mülki silahın satış qaydalarını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

“Xidməti və mülki silah haqqında” Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş xidməti və mülki silahın uçotu, saxlanması, gəzdirilməsi, daşınması, göndərilməsi, təyinatı üzrə istifadə olunması və məhv edilməsi qaydalarını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

“Xidməti və mülki silah haqqında” Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş silahın mühafizəsi ilə bağlı tələbləri müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

“Xidməti və mülki silah haqqında” Azərbaycan Respublikası Qanununun 16-cı maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş xidməti silahın xidməti vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar tətbiq edilməsi qaydalarını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

“Xidməti və mülki silah haqqında” Azərbaycan Respublikası Qanununun 16-cı maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş odlu silahın tətbiqi ilə bağlı ov etmə qaydalarını, eləcə də idmanla məşğul olma qaydalarını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

“Xidməti və mülki silah haqqında” Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş mülki silahın kolleksiya edilməsi və ya onun sərgisinin keçirilməsi qaydalarını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

“Xidməti və mülki silah haqqında” Azərbaycan Respublikası Qanununun 19-cu maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş təmir edilməsi mümkün olmayan, texniki şərtlərə uyğun gəlməyən odlu silah və onun döyüş sursatının əvəzsiz olaraq geri alınma və məhv edilmə qaydalarını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

“Xidməti və mülki silah haqqında” Azərbaycan Respublikası Qanununun 19-cu maddəsinin beşinci hissəsində nəzərdə tutulmuş silahın geri alınması qaydalarını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının “Xidməti və mülki silah haqqında” Azərbaycan Respublikası Qanununa uyğunlaşmasını təmin etsin və bu haqda Azərbaycan Respublikasının Prezidentinəməlumat versin;

öz səlahiyyətləri daxilində həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

“Xidməti və mülki silah haqqında” Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

“Xidməti və mülki silah haqqında” Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin ikinci hissəsində, 6-cı maddəsinin dördüncü hissəsində, 7-ci maddəsinin altıncı hissəsində, 8-ci maddəsinin yeddinci hissəsində, 11-ci maddəsinin birinci hissəsində, 15-ci maddəsinin birinci və ikinci hissələrində, 16-cı maddəsinin ikinci və üçüncü hissələrində, 17-ci maddəsinin birinci və ikinci hissələrində, 19-cu maddəsinin üçüncü və beşinci hissələrində, 20-ci maddəsinin birinci hissəsində, ikinci hissəsinin 1-ci və 3-cü bəndlərində, 21-ci maddəsinin birinci hissəsində, üçüncü hissəsinin 2-ci və 4-cü bəndlərində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

“Xidməti və mülki silah haqqında” Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin ikinci hissəsinin 12-ci bəndində, 8-ci maddəsinin birinci hissəsinin birinci cümləsində, ikinci, üçüncü və dördüncü hissələrində, 9-cu maddəsinin üçüncü hissəsində, altıncı hissəsinin birinci cümləsində, yeddinci, on birinci və on ikinci hissələrində, 13-cü maddəsinin ikinci hissəsində, 14-cü maddəsinin birinci və ikinci hissələrində, 15-ci maddəsinin dördüncü hissəsində, 18-ci maddəsinin birinci və dördüncü hissələrində, 19-cu maddəsinin birinci və dördüncü hissələrində, 20-ci maddəsinin ikinci hissəsinin 4-cü bəndində, 21-ci maddəsinin üçüncü hissəsinin 5-ci bəndində, 23-cü maddəsinin birinci hissəsinin 3-cü və 6-cı bəndlərində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir;

“Xidməti və mülki silah haqqında” Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinin birinci hissəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanları”nın səlahiyyətlərini satış qaydalarının müəyyən edilməsinə aid olduqda Azərbaycan Respublikasının Nazirlər Kabineti, silahın satışı ilə məşğul olmaq üçün xüsusi icazə verməyə aid olduqda isə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirirlər;

“Xidməti və mülki silah haqqında” Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini ərizənin baxılma müddəti bir ay təyin olunmaqla Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir;

“Xidməti və mülki silah haqqında” Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinin birinci hissəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və dövlət standartlarının və standartlaşdırma üzrə digər normativ sənədlərin tələblərinə əməl olunması ilə bağlı Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi həyata keçirirlər;

“Xidməti və mülki silah haqqında” Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin üçüncü və dördüncü hissələrində, 6-cı maddəsinin birinci və üçüncü hissələrində, 10-cu maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi həyata keçirir;

“Xidməti və mülki silah haqqında” Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin ikinci hissəsinin 8-ci bəndində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir.

**HEYDƏR ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 21 fevral 1998-ci il**
**№ 679**